**Vergidən yayınma faktları aşkar edilmişdir**

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən 2012-ci ilin aprel ayında 15 cinayət işi başlanmışdır ki, onlardan da 11-i külli miqdarda vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırmış sahibkarlar barəsində olmuşdur. Araşdırmalar zamanı müəyyən edilmişdir ki, vergi orqanlarına təqdim edilən hesabatlara bilərəkdən təhrif olunmuş məlumatlar daxil etməklə «Araz-Tikinti Servis» MMC 90 min manat, «Çınqıl İnşaat» Təmir-Tikinti Quraşdırma Müəssisəsi 133 min 360,47 manat, «Cahangir» MMC isə 70 min 220,3 manat məbləğində vəsaiti dövlət büdcəsinə ödəməkdən yayındırmışlar. Bundan əlavə, «Cahangir» MMC xüsusi razılıq (lisenziya) tələb olunduğu halda, razılıq almadan dağ-mədən işlərini həyata keçirməklə 43 min 339,69 manat məbləğində gəlir əldə etmişdir. Sözügedən müəssisələr, əsasən, əlavə dəyər vergisi, mənfəət vergisi və ödəmə mənbəyindən tutulan vergiləri büdcədən yayındırmışlar.
Departament tərəfindən aparılmış digər araşdırmalarla «Azərsutikinti» ATSC-nin Samur-Abşeronsutikinti törəmə müəssisəsində, «Ulutürk», «YK İnşaatçı» və digər məhdud məsuliyyətli cəmiyyətlərdə külli miqdarda vergilərin dövlət büdcəsindən yayındırılması faktları aşkar edilmişdir. Araşdırma zamanı vergidən yayınma faktları toplanmış materiallarla təsdiq edildiyi üçün həmin faktların hər biri üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi (külli miqdarda vergilərin dövlət büdcəsindən yayındırılması) ilə cinayət işi başlanmışdır. Hazırda təqsirli şəxslərin müəyyən olunması ilə bağlı tədbirlər həyata keçirilir.